# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/41** **2 noyabr 2016-cı il**

**Beynəlxalq Audit Standartlarının tətbiqinin genişləndirilməsi haqqında**

“Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət planı”na, Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasına (2012-2020-ci illər), Beynəlxalq Mühasiblər Federasiyasının üzvlük tələblərinə və həmin Federasiya ilə Azərbaycan Respublikasının Auditorlar Palatası arasında imzalanmış 2014-cü il 14 yanvar tarixli memoranduma müvafiq olaraq, ölkədə həyata keçirilən iqtisadi islahatlara dəstək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Beynəlxalq Mühasiblər Federasiyası yanında Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) "Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə beynəlxalq standartlar toplusu"nun Azərbaycan dilinə tərcümə edilmiş mətninin peşə redaktəsinin aparılması üçün aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri:***

Vəli Rəhimov - Maliyyə və təsərrüfat idarəsinin rəisi

***İşçi qrupunun üzvləri:***

Nəcəf Talıbov - Sədrin elmi-metodik məsələlər üzrə müşaviri
Namiq Abbaslı - Sərbəst auditor
Altay Cəfərov - Sərbəst auditor
Zamin Hüseynov - “MAK Azərbaycan LTD” MMC-nin direktoru
Üzeyir Fətiyev - sərbəst auditor
Nazim Axundov - Sərbəst auditor
Elnur İbrahimov - Sərbəst auditor
Vəli Kərimov - Sərbəst auditor

2. İşçi qrupuna tapşırılsın ki, "Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə beynəlxalq standartlar toplusu"nun peşə redaktəsini 20 noyabr 2016-cı il tarixinədək başa çatdıraraq təqdim olunmasını təmin etsinlər.

3. Sərəncamın icrasına nəzarət Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramova həvalə edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**